**Əliyev, Şahvələd**. Fəxrimiz, şəhidimiz kiçik çavuş Rahib Hüseynov / Ş Əliyev // Respublika. - 2020. - 25 noyabr. - **№ 246**. - S. 8.

Bu dünyada hər kəsin bir müqəddəs yolu var,

yarımçıq arzuların dildə bitən yolu var.

Torpağında, daşında yaşayan şəhidlərin

qanlı azadlıq yolu, bir də Vətən yolu var.

Şanlı Azərbaycan ordusu məqsədinə, məramına doğru inamında israrlıdır, əqidəsinə inamlıdır.

Ali Baş Komandan İlham Əliyev cəsarəti və iradəsi, diplomatik gücü ilə şər qüvvələrə sinə gərib öz ordusu ilə Azərbaycan həqiqətləri uğrunda vuruşur.

Bu amal uğrunda erməni işğalçılarına qarşı son damla qanına qədər vuruşub canını fəda edən igidlərimizdən biri də 20 yaşlı (02.04.2000 - 29.10.2020) kiçik çavuş Hüseynov Rahib İlham oğludur. O, Füzuli rayonunun Merdinli, Qaraxanbəyli və Seyidəhmədli istiqamətində qəhrəmancasına vuruşub, qanı ilə doğma torpağında iz qoymuşdur. Onun bu fədakarlığı və doğma torpağına sədaqəti həmkarlarının ruh yüksəkliyinə səbəb olmuş, göstərdiyi igidlik döyüşçülərimizin qələbə əzmini daha da artırmışdır. Bu səmimi duyğular vətən uğrunda şəhid olan nakam bir gəncin alova dönmüş arzularının Vətən, Xalq, Azərbaycan, Qarabağ, dövlətçiliyimizə sədaqət amalı ilə düşünən hər bir insanda qürur hissi doğurur və Vətənin bütövlüyü uğrunda mübarizəyə səsləyirdi. Erməni faşizmi özünün bütün çılpaqlığı ilə göz qabağındadır. Düşmən çox məkrli, əsilsiz, nəsilsiz, sifətsiz gerçəkliyi ilə özünü kəndlərimizin viran edilməsində, apardığı antimilli şovinizm siyasətində erməni-daşnak toplumunu heyvaniləşdirir.

Erməni faşizmi özünün təbiətini dinc yaşayış ərazilərini Gəncəni, Bərdəni, Tərtəri, Ağcabədini, Goranboyu, Mingəçeviri raket atəşinə tutmaqla bir daha bəyan edir. Düşmən mərmiləri Xızıya, Siyəzənə, Qəbələyə və digər ərazilərimizə qədər gəlib çatırdı.

Erməni-daşnak düşüncəsi başa düşə bilmir ki, Azərbaycan xalqı və onun Ali Baş Komandanlığının rəhbəri İlham Əliyevin sərəncamında olan Ordusu keçən əsrin 90-cı illərdəki tələm-tələsik yaradılan Ordu deyildir. Hazırkı Ordumuz ən möhtəşəm, nizamlı və fədakar ordularından biri, bəlkə də birincisidir. Bu Ordu ona görə güclüdür ki, Vətən müharibəsi aparır, əzəli Azərbaycan torpağında dövlətçilik siyasətimizin strategiya və taktikasının ana xəttinə daxil olan mühüm strukturları bərpa edir. Bu Ordu ona görə güclüdür ki, onun başında Ali Baş Komandan İlham Əliyev durur və erməni faşizminə meydan savaşında öz gücünü göstərir.

Eşq olsun qüdrətli Azərbaycan Ordusuna!

Eşq olsun Azərbaycan Əsgərinə və Zabitinə!

Bizim xalq həmişə Vətənini, millətini, xalqını sevən gənclərimizlə fəxr edib. Bu gün Vətənin ağır günündə cəbhədə olmasam da, Sizin qələbə ruhu ilə çırpınan ürəyinizi, ölümün üstünə gedən cəsarətinizi gördüm və bir daha sizlərlə qürur duydum.

1993-cü ildən düşmən tərəfindən işğal olunmuş kəndimizi görmək həsrəti ilə yaşayırdım, yuxularımda görürdüm.

Azərbaycan əsgəri cəsarəti və hünəri ilə tarix yazdı. Torpağını erməni işğalçılarından qorudu. Düşmən məhvə məhkum olduğunu bir daha gördü. Azərbaycan Əsgərinin qarşısında bir daha aciz qaldı. Qarabağda gedən döyüşlər onu da göstərdi ki, qüdrətli Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı erməni qəsbkarlarından azad etməyə qadir və hazırdır.

Eşq olsun Qəhrəman Azərbaycan Əsgərinə və Zabitinə!

Eşq olsun qüdrətli Azərbaycan Ordusuna!

On minlərlə gənc Qarabağ çağırışı ilə Ali Baş Komandanın ətrafında birləşərək bütün dünyaya nümayiş etdirdi.

Torpaq uğrunda ölən varsa, Vətəndir! Deyib canını fəda etdilər, Şəhid oldular.

Allah bütün Şəhidlərə rəhmət etsin.

Azərbaycan Əsgəri, haqq yolunun sonunda ümid var, işıq var. Bu qələbəni bizə böyük sərkərdəmiz, Ali Baş Komandan İlham Əliyevin müdrik zəkası və təşkilatçılığı bəxş etmişdir. Onun Azərbaycan Xalqı qarşısında hesabat verməsi, fəxrlə atasına onun vəsiyyətinin yerinə yetirdiyini bəyan etməsi, millətin birliyini, bütövlüyünü daha da möhkəmləndirdi və mənfur düşmənə qarşı amansız olmağa istiqamət verdi. Mən Merdinli kəndinin bir ziyalısı kimi doğma yurdumuzun erməni faşist işğalından azad edilməsini böyük qürur hissi ilə yaşayıram, kəndimizin yenidən dirçəlməsi üçün əlimdən gələni edəcəyəm. Bu zəfər yolunda zəhməti olan, özünün canı və qanı ilə yeni tarix yazan şəhidlərimizin xatirəsini əbədiləşdirmək məqsədi ilə azad edilən hər bir kəndə onların adına küçələr, məktəblər, mədəniyyət evləri və xiyabanlar salınsın. Rayonun ən görkəmli yerində isə Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin möhtəşəm abidəsi ucaldılsın, indiki və gələcək nəsil yeni tarixin yaradıcısı İlham Heydər oğlu Əliyevi tanısın.

Var olsun müstəqil dövlətimiz! Var olsun Ali Baş Komandan İlham Əliyev! Var olsun fədakar Azərbaycan Ordusu!

Şahvələd ƏLİYEV,

biologiya üzrə fəlsəfə doktoru.